## TURAN ŞARKISI

**GÜNTAY QOCABƏYLİ**
**(Güney Azerbaycan)**

Ruhum yenə seyr edərək ulu Turan göylərini
Duyur yaxın gələcəkdə açılacaq səhərini
Səcdə edib qucaqlayır ata yurdun zəferini
Türkistan'ın ellərində könlüm bir səs dinləyir
*"Türk milləti çalışqandır, Türk milləti zəkidir"*

Ey min ildir törəsindən kimliyindən ayrılan
Param - parça varlığınla daima qan ağlayan
Nakəslərə, kafirlərə, daim yarar sağlayan
Ural - Altay dağlarında bir səs böyle söyləyir:
*"Türk milləti çalışqandır, Türk milləti zəkidir"*

Böyük Turan sevdasıyla birləşən Türk boyları
Yaşadacaq o gözəlim törələri toyları
"Fikirdə bir, duyquda bir, dildə bir Türk soyları
Bunu millət kimliyimiz, tariximiz istəyir
*"Türk milləti çalışqandır, Türk milləti zəkidir"*

Bizim Təbriz kəndimizin çalxalanır dünyası
Beyinlərdə məskən salır istiqlalın avası
Hopur onun iliyinə Turançılıq sevdası
Ulu ərkin zirvəsində bir ruh böylə əmr edir:
*"Türk milləti çalışqandır, Türk milləti zəkidir"*

Bu Ata Türk dəhasının, zəkasının özüdür
Çanakkala şəhidinin iradəsi sözdür
Nihal Atsız amacının ürəyidir, gözüdür
Bir ruh bizi ittihada, bütövlüyə səsləyir:
*"Türk milləti çalışqandır, Türk milləti zəkidir"*